# Vyetnamda Azərbaycanın Müstəqillik Günü və iki ölkə arasında strateji tərəfdaşlığın qurulması münasibətilə qəbul təşkil olunub

Vyetnamın ən mötəbər tədbir məkanı və tarixi səhnəsi hesab olunan Hanoy Opera Binasında 28 May - Müstəqillik Günü və Azərbaycan-Vyetnam strateji tərəfdaşlığının qurulmasına həsr edilmiş rəsmi qəbul, daha sonra isə "Azərbaycan klassik musiqisinin inciləri" adlı təntənəli konsert proqramı keçirilib.




AZƏRTAC xəbər verir ki, Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam və həyat yoldaşı xanım No Fon Li konsert proqramını izləyiblər. Bu, Vyetnamın tarixində Baş katibin xarici ölkələrin milli günləri münasibətilə təşkil olunan tədbirlərdə ilk belə iştirakıdır.

Tədbirlərdə Vyetnamın dövlət və hökumət nümayəndələri, diplomatik missiya təmsilçiləri, mədəniyyət və ictimaiyyət xadimləri, iş adamları, Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının üzvləri, əvvəllər Azərbaycanda təhsil almış vyetnamlı məzunlar, media nümayəndələri, həmvətənlərimiz, ümumilikdə təxminən 600 nəfər iştirak edib.

Hər iki ölkənin Dövlət himnləri səsləndirildikdən sonra Azərbaycanın Vyetnamdakı səfiri Şövqi Mehdizadə 107 il bundan əvvəl müsəlman Şərqində qurulan ilk demokratik parlament respublikasının - Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) müstəqil, demokratik dövlət quruculuğu sahəsində həyata keçirdiyi mütərəqqi işlər barədə danışıb.

Prezident Ho Şi Minin 1959-cu ildə Azərbaycana və Ulu Öndər Heydər Əliyevin 1983-cü ildə Vyetnama səfəri ilə xalqlarımız arasında dostluq münasibətlərinin qurulduğu qeyd olunaraq, hazırda bu tarixi əlaqələrin bütün sahələr üzrə uğurla inkişaf etdiyi diqqətə çatdırılıb.

Şövqi Mehdizadə Azərbaycan Prezidenti İlham Əliyevin dəvəti ilə Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın mayın 7-8-də Azərbaycana uğurlu dövlət səfəri etdiyini, səfər zamanı Azərbaycan ilə Vyetnam arasında Strateji Tərəfdaşlıq münasibətlərinin qurulduğunu vurğulayaraq, səfərin tarixi əhəmiyyət daşıdığını bildirib.

Azərbaycan-Vyetnam ikitərəfli əməkdaşlıq gündəliyi, ölkəmizin COP29-a uğurlu sədrliyi və 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası haqqında məlumat verilib.

Vyetnam xarici işlər nazirinin müavini Le Anh Tuan 28 Mayın Azərbaycan xalqı və dövləti üçün xüsusi önəm daşıdığını bildirərək, 107 illik dövlət quruculuğu və inkişaf yolunda əldə edilmiş nailiyyətlər münasibətilə Azərbaycan xalqını təbrik edib.

Vyetnam və Azərbaycan arasında ənənəvi dostluq münasibətlərinin olduğunu deyən vyetnamlı diplomat, Prezident Ho Şi Minin 1959-cu ildə Azərbaycana tarixi səfərindən sonra bu əlaqələrin hər iki ölkənin liderləri və xalqları tərəfindən uğurla inkişaf etdirildiyini vurğulayıb. Minlərlə vyetnamlının Azərbaycanda təhsil alaraq Vyetnamın inkişafına və ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsinə töhfələr verdiyi qeyd olunub.

Diplomatik münasibətlərin qurulduğu 1992-ci ildən bu yana Vyetnam-Azərbaycan əlaqələrində mühüm irəliləyişin əldə olunduğunu deyən Le Anh Tuan müdafiə və təhlükəsizlik, ticarət, investisiya, təhsil və təlim sahələrində əməkdaşlıq üçün böyük potensialın olduğuna diqqət çəkib. O, Vyetnam Kommunist Partiyası və Vyetnam dövlətinin Azərbaycanı regionda əsas tərəfdaş hesab etdiyini vurğulayaraq, Azərbaycan xalqının Vyetnamın milli müstəqillik və yenidən birləşmə uğrunda keçmiş mübarizəsində, həmçinin milli quruculuq və inkişaf işində göstərdiyi qiymətli dəstəyini hər zaman xatırladıqlarını qeyd edib. Nazir müavini Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfərinin müsbət nəticələrinin məmnunluq doğurduğu və Azərbaycanın Qafqaz regionunda Vyetnamın ilk strateji tərəfdaşına çevrildiyi vurğulayıb.

Sonra Xalq artisti, professor Fəxrəddin Kərimovun dirijorluğu və Hanoy Filarmoniya Orkestrinin müşayiəti əsasında dahi bəstəkarımız Üzeyir Hacıbəylinin "Koroğlu" operasından uvertüra ilə konsert proqramına start verilib. Xalq artisti Fidan Hacıyevanın ifasında Azərbaycan klassik musiqisinin ecazkar nümunələri təqdim olunub. Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Müslüm Maqomayev və Niyazi kimi böyük sənətkarların əsərlərinin yer aldığı konsert proqramı Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi, eləcə də digər bütün qonaqlar tərəfindən böyük hərarətlə qarşılanıb.

Müslüm Maqomayevin məşhur "Azərbaycan" mahnısı Fidan Hacıyeva və vyetnamlı ifaçı Nguyen Khac Hoa tərəfindən, "Salam, Vyetnam" mahnısı isə Fidan Hacıyeva və Vyetnamda yaşayan soydaşımız Sevinc Orucovanın ifasında Azərbaycan və Vyetnam dillərində səsləndirilib.

Qeyd edək ki, konsertin ərsəyə gəlməsində Azərbaycanın Mədəniyyət Nazirliyi, əsas sponsor qismində "Silk Way West Airlines" şirkəti, eləcə də SOCAR tərəfindən dəstək göstərilib.

Konsertdən sonra Baş katib To Lam səfir Şövqi Mehdizadə ilə söhbət zamanı xalqımızı Müstəqillik Günü münasibətilə təbrik edərək, Azərbaycan Prezidentinə onun salamlarını çatdırmağı xahiş edib. To Lam, həmçinin ölkəmizə səfərini yada salaraq, səfərin yaxın gələcəkdə müsbət nəticələrinin olacağına əminliyini ifadə edib.

Azərbaycan. - 2025.- 28 may (№110).- S.20.